❒ ***"Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən dövlət qurumlarının, o cümlədən yerli icra hakimiyyəti orqanlarının qarşısına ölkədə iqtisadi durumun yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın inkişafı, kənd təsərrüfatında islahatların genişləndirilməsi, yeni istehsal və emal müəssisələrinin açılması, əhalinin məşğulluq səviyyəsinin artırılması və maddi rifahının yüksəldilməsi sahəsində əməli tədbirlər görülməsi ilə bağlı vəzifələr qoyulub. Həmin vəzifələr Balakən rayonunda da böyük məsuliyyətlə icra olunur.***

1602,2 hektar sahədə yeni fındıq bağları salınıb. Bununla yanaşı, qərzəkli və digər meyvəçiliyin inkişaf etdirilməsi üçün müvafiq işlər görülüb, Katex kəndində 3,5 hektar sahədə qoz ağaclarının əkilməsi təmin edilib və damlama üsülu ilə suvarma sistemi qurulub. İntensiv bağçılığın inkişafına diqqət artırılıb və mövcud 187 hektar intensiv meyvə bağlarına aqrotexniki qulluq göstərilib.

Rayon rəhbəri qeyd etdi ki, ötən il abadlaşdırma, tikinti, təmir və quruculuq işləri davam etdirilib, çəkilib. Payız-qış mövsümünə hazırlıqla əlaqədar mövcud qazanxanaların qaz və işıq xətləri yoxlamadan keçirilib, istilik xətləri təmir edilib. Elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması sahəsində 74 transformator cari, 44 transformator isə əsaslı təmir edilib, yaşayış məntəqələrində 10 yeni transformator məntəqəsi quraşdırılıb.

2017-ci ildə qarşıda duran vəzifələr haqqında danışan İslam Rzayev qeyd etdi ki, başladığımız abadlıq işlərini cari ildə də davam

# Balakən: sosial-iqtisadi inkişafla bağlı önəmli addımlar atılır





Rayonun mövcud iqtisadi potensialından, təbii və əmək ehtiyatlarından maksimum səmərəli istifadə olunması, sahibkarlığın inkişafı və yeni iş yerlərinin yaradılması, dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrindən istifadənin vəziyyəti dərindən öyrənilib, əkin sahələrinin, eləcə də istehsalın artırılması ilə bağlı hədəf göstəriciləri müəyyən edilib. Görülmüş işlərin nəticəsində son 20 ildə ilk dəfə rayonda tütün bitkisinin becərilməsinə və ipəkqurdu bəslənməsinə başlanılıb. Tütünçülüyün inkişaf etdirilməsi ilə bağlı torpaq sahələri və istehsalçılar müəyyən edilib, 501 hektar sahədə tütün əkilib, 1149,3 ton yaş, 96,3 ton quru tütün istehsal olunaraq qəbul məntəqələrinə təhvil verilib".

Bu fikirləri Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon müşavirəsindəki hesabat məruzəsində dedi. Rayon rəhbəri əlavə etdi ki, baramaçılığın inkişaf etdirilməsi sahəsində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün ardıcıl işlər aparılıb, mövcud yem bazası, eləcə də istehsalçılar müəyyən olunub. Əvvəlki illərdə rayonda barama istehsal edilməməsinə baxmayaraq, görülmüş işlər özünün müsbət səmərəsini verib, bu sahədə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi nəticəsində rayon üzrə 3,2 ton barama istehsal edilib. Baramaçılığın daha da inkişaf etdirilməsi və onun yem bazasının yaxşılaşdırılması üçün yazda 10 min ədəd, payız mövsümündə isə 90 min ədəd tut tinglərinin rayonun bütün kəndlərində əkilməsi təşkil olunub. Tinglərin 76 min ədədi Çin Xalq Respublikasından gətirilib.

Fındıqçılığın inkişaf etdirilməsi məqsədi ilə yeni fındıq bağlarının salınması üçün dövlət, bələdiyyə və xüsusi mülkiyyət növləri üzrə torpaq sahələri müəyyən olunub, istehsalçıların tinglərə olan tələbatı ödənilib, şəhərdə Heydər Əliyev Fondu hesabına tikilən 100 yerlik körpələr evi-uşaq bağçası, əsaslı təmir olunan internat tipli gimnaziya, kənd təsərrüfatı idarəsinin və rayon polis şöbəsinin inzibati binası, kəndlərdə Qarabağ əlilləri üçün tikilmiş 3 fərdi ev istifadəyə verilib. Meşəşambul kəndində Qabaqçöl yanğınsöndürmə məntəqəsinin tikintisi başa çatdırılıb, Mazımçay buraxılış məntəqəsi yaxınlığında gömrük terminalının tikintisi isə davam etdirilib. Mazımçayın Xalatala kəndi ərazisindən keçən hissəsində uzunluğu 18 metr olan bir aşırımlı körpünün və Şərif kəndində 360 şagird yerlik yeni məktəbin tikintisinə başlanılıb.

Hesabat dövründə əhalinin qaz, su və istiliklə təchizatının yaxşılaşdırılması sahəsində xətlərdə zəruri təmir işləri aparılıb, yaranmış problemlər qısa müddətdə aradan qaldırılıb. Hənifə kəndində bir subartezian quyusu qazılıb, 1000 metr məsafədə su xətti şəbəkəsi yaradılaraq əhalinin istifadəsinə verilib. Şəhərdə 1800 metr məsafədə su xətti yenidən etdirəcəyik. Şəhərdə abadlıq işlərinin aparılması, çoxmənzilli kommunal binaların fasadının və dam örtüklərinin təmiri davam etdiriləcək, küçələr asfaltlanacaq, dövlət bayrağı muzeyi və "ABAD-park" kompleksi tikiləcək. Balakən-Sarıbulaq-Qabaqçöl-Xalatala avtomobil yolunun və Şərif kənd tam orta məktəbinin tikintisi başa çatdırılacaq, Katex-Qazbinə yolu boyunca yol kənarları, hasarlar başdan-başa abadlaşdırılacaq, təhsil, səhiyyə və mədəniyyət obyektlərində əsaslı və cari təmir işləri aparılacaq.

Ümumrayon müşavirəsində Prezident Administrasiyasının məsul işçisi Rüfət Əliyev çıxış edərək, 2016-cı ildə respublikamızda sosial-iqtisadi sahədə qazanılan uğurlar barədə danışıb, tövsiyələrini bildirib.

Müşavirə iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul olunub.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***